2020.- 3 oktyabı.- S.30.

iki sahil

# Qarabağ bizimdir, bizdə qalacaq!

*Mən sizə söyləyim qoy bəri başdan,
Azadlıq başlanır qanlı savaşdan.
Düşmənlə danışsan asta, yavaşdan,
O, səni həmişə qorxaq sanacaq.
Qarabağ bizimdir, bizdə qalacaq!*

* * *

*Dayanma ey əsgər, sən vur düşməni.
Qorxudan qaçacaq mənfur erməni.
Ölüm qorxutmasın döyüşdə səni,
Vurduqca hayların beli sınacaq.
Qarabağ bizimdir, bizdə qalacaq!*

* * *

*Gərək uzanmasın bu hərb savaşı,
Amansız olginən düşmənə qarşı.
Vətən torpağının hər bir qarışı,
Onu zəbt edənə məzar olacaq.
Qarabağ bizimdir, bizdə qalacaq!*

* * *

*Qələbə haqqındır, haqq isə bizik,
Düşmən nadürüstdür, biz isə düzük.
İlanı başından gərəkdir əzək,
Qarabağ bizimdir, bizdə qalacaq!*

# Qələbə gözləyir Azərbaycanım!

*Sən ey mərd əsgərim, mərd generalım,
Siz mənim şöhrətim, siz mənim şanım.
Düşmənə zərbədir ümdə amalın,
Qələbə gözləyir Azərbaycanım!*

* * *

*Ulu Qarabağım od tutub yandı,
Onu qaytarmağa indi zamandı.
Sonadək yetirin siz hərbi andı,
Qələbə gözləyir Azərbaycanım!*

* * *

*Möhkəm tut əlində əsgər silahı,
Düşünmə dünəni, düşün sabahı,
Tutacaq düşməni xalqımın ahı,
Qələbə gözləyir Azərbaycanım!*

* * *

*Bu hərb savaşına çoxdan hazırsan,
Cəbhədə haylara məzar qazırsan.
Tarixə bir zəfər adı yazırsan,
Qələbə gözləyir Azərbaycanım!*

**Rafiq Abdullayev (Rəfili)**